# Ümumdünya Fəlsəfə Konqresində COP29-la bağlı "dəyirmi masa" təşkil olunub

Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri, professor Tahirə Allahyarova İtaliyanın paytaxtı Roma şəhərində keçirilən 25-ci Ümumdünya Fəlsəfə Konqresində (The 25th World Congress of Philosophy (WCP) iştirak edib.

AZƏRTAC xəbər verir ki, əsas şüarı "Sərhədləri aşan fəlsəfə" ("Philosophy Across Boundaries") olan konqresə dünyanın 120 ölkəsindən 5000 alim və tədqiqatçı qatılıb. Konqres tədqiqatçılar üçün həm qlobal, həm də lokal coğrafiyalarda ən müxtəlif: ictimai, siyasi, sosial, mədəni-mənəvi, tarixi, hüquqi, süni intellekt, ekoloji etika və digər mövzularda müzakirələr və fikir mübadiləsi aparmaq üçün platforma olub. İki simpozium və 89 sessiyada məruzələr dinlənilib.

Azərbaycanı təmsil edən T.Allahyarova iqlim və ekologiya ilə bağlı sessiyada ayrıca məruzəçi, habelə iki "dəyirmi masa"da təşkilatçı və çıxışçı olub. Konqresin "14. Ətraf Mühit Fəlsəfəsi və Davamlı İnkişaf" adlı sessiyasında T.Allahyarovanın "Qlobal iqlim böhranının sosial və fəlsəfi əsasları" mövzusunda məruzəsi təqdim edilib. STM-nin təşəbbüsü ilə Konqres çərçivəsində "COP29 konfransının Azərbaycanda ekoloji fəlsəfənin və davamlı inkişafın daha da təkmilləşdirilməsinə gözlənilən müsbət təsiri" mövzusunda "dəyirmi masa" keçirilib. İştirakçılar ölkəmizin bu sahədə qlobal təşəbbüsləri ilə bağlı məlumatlandırılıblar.




"Dəyirmi masa"ya iqlim və ətraf mühit profilli tədqiqatçılar Noriko Haşimoto (Yaponiya), Nikola Zengiaro (İtaliya), İrene Bugallo (Argentina), Karen Joisten (Almaniya), Joisten Renner Kim (Kanada), Angela Miçelis (İtaliya), Trung Do (Vyetnam), Hans Jonas Jelson Oliviera (Braziliya), habelə Azərbaycan da daxil olmaqla, türk dövlətlərini təmsil edən tədqiqatçılar qatılıblar.

T.Allahyarova "Türk xalqlarının fəlsəfi fikir tarixinin öyrənilməsinə metodoloji yanaşmalar: Türk sivilizasiyasının fəlsəfi irsinin özünəməxsusluğu məsələləri, problemlər, bəzi təkliflər" mövzusunda təqdimatla çıxış edib.

Bundan əlavə, "dəyirmi masa"da "Dekolonizasiya və xalqların irsi", "Afrika qitəsinin ictimai-siyasi fikir, mənəvi irsi, Qərb dünyasının kolonializm-müstəmləkəçilik dövründə tətbiq edilən birtərəfli yanaşmalar, bu xalqların "düşüncəsinin geri qalması və onların modernləşdirilərək inkişaf etdirilməsi", avropamərkəzçilik və kolonializm mövzularında da məruzələr dinlənilib.

"Dəyirmi masa"da A.Rettova ilə "Dekolonizasiya və dünya xalqlarının sosial-fəlsəfi irsinə avropamərkəzçi yanaşmanın nəticələri" mövzusunda aparılan ayrıca müzakirədə Azərbaycanın BMT səviyyəsində dekolonizasiya probleminin həllinə verdiyi töhfələr, Bakı Təşəbbüs Qrupunun təsis edilməsi və onun tarixi fəaliyyəti ilə bağlı məlumat verilib.

Azərbaycan.- 2024.- 15 avqust (№ 173).- S.9.